**Zbiqnev Brejinski**

# BÖYÜK ŞAHMAT TAXTASI

## Amerikanın hökmranlığı və onun geostrateji imperativləri

Tərcüməçi:
Yaşar Əsədov

qanun nəşriyyatı

**Zbigniew Brzezinski**

# THE GRAND CHESSBOARD

**American primacy and**
**Its geostrategic imperatives**

Zbiqnev Brejinskinin "Böyük şahmat taxtası: Amerikanın hökmranlığı və onun geostrateji imperativləri" əsəri, ABŞ-ın qlobal hegemoniyasını qorumaq və gücləndirmək üçün geosiyasi strategiyalarını araşdıran fundamental əsərlərdən biridir. Müəllif Avrasiya materikinii dünya siyasətində əsas şahmat taxtasına bənzədir və burada üstünlük qazanmaq üçün ABŞ-ın hansı addımları atmalı olduğunu təhlil edir. Kitabda ABŞ-ın Avropa, Rusiya, Çin, Orta Asiya və Yaxın Şərq bölgələri ilə münasibətləri və gələcək güc balansı strategiyaları ətraflı müzakirə olunur.

**Zbigniew Brzezinski THE GRAND CHESSBOARD:**
**American Primacy And Its Geostrategic Imperatives**
**Zbiqnev Brejinski BÖYÜK ŞAHMAT TAXTASI**
**Amerikanın hökmranlığı və onun geostrateji imperativləri**
Bakı, Qanun Nəşriyyatı, 2025, 288 səh.

Janr: siyasət, sosiologiya
Yaş qrupu: 18+
Ölçü: 135x210 mm
Qapaq: yumşaq
Çapa imzalandı: 11.03.2025

Tərcüməçi: Yaşar Əsədov
Redaktor: Kifayət Haqverdiyeva
Korrektor: Bəsti Məmmədova
Mətn dizaynı: Rahilə Şamil
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-595-19-2

© Qanun Nəşriyyatı, 2025
© Zbigniew Brzezinski, 1997
This edition published by arrangement with Basic Books, an imprint of Perseus Books, LLC, a subsidiary of Hachette Book Group, Inc., New York, NY, USA. All rights reserved.

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

# KİTABIN İÇİNDƏKİLƏR


**Giriş** .......... 7

**I Fəsil. Hegemonluğun yeni tipi** .......... 10

**II Fəsil. Avrasiya şahmat taxtası** .......... 45

**III Fəsil. Demokratik platsdarm** .......... 81

**IV Fəsil. Qara dəlik** .......... 121

**V Fəsil. Avrasiya Balkanları** .......... 167

**VI Fəsil. Uzaq Şərqdə istinad məntəqəsi** .......... 203

**Yekun** .......... 259

*Tələbələrimə –*
*onlara sabahın dünyasının*
*cizgilərini formalaşdırmağa*
*kömək etmək üçün*

# "G İ R İ Ş"

## Fövqəlbəşər dövlətin siyasəti

Təqribən beş yüz il əvvəl, qitələr siyasi cəhətdən qarşılıqlı fəaliyyətə başladığı dövrdən Avrasiya tədricən dünyanın qüdrət mərkəzinə çevrilir. Avrasiyanın sakinləri, əsasən də, onun Qərbi Avropa hissəsində yaşayan xalqlar müxtəlif dövrlərdə və müxtəlif yollarla dünyanın digər regionlarına daxil olur və orada hökmranlıq edir. Avrasiyanın ayrı-ayrı dövlətləri isə xüsusi statusa yiyələnir və dünyanın aparıcı fövqəlbəşər[1] dövlətlərinin malik olduqları imtiyazlardan istifadə edirdilər.

XX əsrin son onilliyi dünyanın işlərində tektonik yerdəyişmələrlə əlamətdar oldu. Avrasiyadan olmayan fövqəlbəşər dövlət tarixdə ilk dəfə Avrasiya dövlətləri arasındakı münasibətlər-

[1] Kitabın rus dilinə tərcüməsində burada nə "ölkə", nə "dövlət", nə də "imperiya" yox, məhz "derjava" sözü istifadə olunubdur. Bu söz məna tutumu etibarilə çox genişdir və yuxarıda sadalanan anlayışlara xas olan bütün səciyyəvi cəhətləri özündə birləşdirir; ilk növbədə isə ilhaq etdiyi yad ərazilərdə öz hakimiyyətini qurmaq və onu qoruyub saxlamaq qabiliyyətini ehtiva edir. Buna əsaslanaraq kitabda regional "derjava" – fövqəldövlət, dünya miqyaslı "derjava" – fövqəlbəşər dövlət kimi tərcümə olunmuşdur. – Y. Ə.

də həm baş arbitr, həm də dünyanın ən qüdrətli dövlətinə çevrildi. Sovet İttifaqının məğlubiyyəti və dağılması Qərb yarımkürəsində yerləşən dövlətin – Birləşmiş Ştatların – yeganə və həqiqətən də ilk qlobal fövqəlbəşər dövlət qismində sürətlə mükafat kürsüsünə yüksəlişinin final akkordu oldu.

Bununla belə, Avrasiya özünün geosiyasi əhəmiyyətini saxlamaqdadır: qitənin Qərb hissəsi – Avropa əvvəlki kimi dünyanın siyasi və iqtisadi qüdrətinin əhəmiyyətli dərəcədə cəmləşdiyi məkandır, Şərq hissəsi – Asiya isə son zamanlar həyati əhəmiyyət kəsb edən iqtisadi inkişaf və artmaqda olan siyasi təsir mərkəzinə çevrilib. Müvafiq olaraq, qlobal maraqları olan Amerikanın Avrasiya dövlətləri arasında hazırkı mürəkkəb münasibətləri necə yoluna qoyacağı və xüsusilə də beynəlxalq arenada dominant rol oynaya biləcək antaqonist Avrasiya dövlətinin meydana çıxmasının qarşısını ala biləcəyi ilə bağlı sual, Amerikanın özünün dünya hökmranlığını həyata keçirmək qabiliyyəti planında mərkəzi sual kimi qalmaqda davam edir.

Bundan belə nəticə hasil olur ki, Amerika xarici siyasətdə qüdrətin ifadəsi olan ən müasir istiqamətlərin (texnologiyalar, kommunikasiyalar, informasiya sistemləri, eləcə də ticarət və maliyyə) inkişafını təmin etməklə yanaşı, geosiyasi aspekti izləməkdə davam etməli və öz təsirini Avrasiyaya elə formada göstərməlidir ki, burada Birləşmiş Ştatların siyasi arbitr qismində çıxış etdiyi sabit siyasi tarazlıq yaradılmış olsun.

Deməli, Avrasiya dünyaya hökmranlıq uğrunda mübarizənin davam etdiyi "şahmat taxtasıdır" və belə mübarizə geostrategiya – geosiyasi maraqların strateji cəhətdən idarə olunması məsələsinə toxunur. Qeyd etməyinə dəyərdi ki, çox da keçmişdə deyil, 1940-cı ildə dünya üzərində hökmranlığa iddialı olan iki nəfər – Adolf Hitler və İosif Stalin Amerikanın Avrasiyadan sıxışdırılıb çıxarılması üçün müqavilə bağladılar (1940-cı ilin noyabrında keçirilmiş məxfi danışıqların gedişində). Bu şəxslərin hər biri dərk edirdi ki, Amerikanın

qüdrətinin Avrasiyaya inyeksiyası onların dünya üzərində hökmranlıq ambisiyalarına son qoya bilər. Onların hər biri bu nöqteyi-nəzəri bölüşürdü ki, Avrasiya dünyanın mərkəzidir və kim ona nəzarət edirsə, o bütün dünya üzərində nəzarəti həyata keçirir. Üstündən yarım əsr keçəndən sonra sual başqa cür ifadə edildi: Amerikanın Avrasiyada üstünlüyü davam edəcəkmi və bundan hansı məqsədlərlə istifadə oluna bilər?

Amerika siyasətinin son məqsədi xoşməramlı və ali olmalıdır – bəşəriyyətin uzunmüddətli tendensiyalarına və fundamental maraqlarına uyğun əməkdaşlığa, həqiqətən də, hazır olan dünya birliyini yaratmaq. Amma eyni zamanda bu da həyati dərəcədə vacibdir ki, siyasi arenada Avrasiyada hökmranlıq və deməli, Amerikanı təhdid edə biləcək rəqib peyda olmamalıdır. Buna görə də kitabın məqsədi hərtərəfli və ardıcıl Avrasiya geostrategiyasının ifadə olunmasından ibarətdir.

*Zbiqnev Brejinski*
Vaşinqton, Kolumbiya dairəsi,
aprel 1997-ci il.

# I FƏSİL

## **“Hegemonluğun yeni tipi”**

Hegemonluq elə dünyanın özü kimi qədimdir. Lakin Amerikanın dünya üzərində üstünlüyü özünün təşəkkül tapma sürəti, qlobal miqyası və həyata keçirilmə üsulları ilə fərqlənir. Qərb yarımkürəsində nisbi təcrid şəraitində mövcud olan Amerika daxili dəyişikliklərin, həmçinin də dinamik inkişaf edən beynəlxalq hadisələrin təsiri altında vur-tut bir əsr ərzində özünün maraqları və təsir əhatəsinə görə dünya miqyaslı fövqəlbəşər dövlətə çevrildi.

### ***Dünya hökmranlığına doğru qısa yol***

İspaniya ilə Amerika arasında 1898-ci il müharibəsi Birləşmiş Ştatların qitədən kənarda apardığı ilk qəsbkarlıq müharibəsi idi[1]. Bu müharibənin sayəsində Amerikanın hakimiyyəti uzaq Sakit okean regionuna, Havay adalarından da uzağa, Filippinə qədər bərqərar oldu. Amerikanın strateji planlaşdırma üzrə mütəxəs-

---

[1] Birləşmiş Ştatların 1898-ci ildə başladığı bu müharibə nəticəsində ABŞ Filippini, Puerto-Rikonu, Quamı ələ keçirdi, Kubanı isə faktiki olaraq öz müstəmləkəsinə çevirdi. – Qeyd kitabın rus dilində nəşrinin redaktoruna məxsusdur.

sisləri yeni əsrin astanasında artıq iki okeanda hərbi-dəniz hökmranlığı doktrinalarının işlənib hazırlanması ilə fəal məşğul olmağa, Amerikanın hərbi-dəniz qüvvələri isə Britaniya haqqında mövcud olan "dənizlərin hökmdarı" rəyini şübhə altına almağa başlamışdı.

Amerikanın ilk dəfə ötən yüzilliyin əvvəllərində "Monro doktrinası"nda elan olunmuş və "tale yazısı" barədə bəyanatlarla haqq qazandırılan "Qərb yarımkürəsinin təhlükəsizliyinin yeganə təminatçısı" statusuna iddiası Birləşmiş Ştatların həm Atlantik, həm də Sakit okeanda hərbi-dəniz hökmranlığını asanlaşdıran Panama kanalının tikintisindən sonra daha da artdı. Amerikanın yüksələn geosiyasi ambisiyalarının bünövrəsi ölkənin sürətli sənayeləşdirilməsi üzərində qurulurdu. Artıq Birinci Dünya müharibəsinin başlanğıcı üçün Amerikanın iqtisadi potensialı dünyanın Ümumi Daxili Məhsulunun 33%-ni təşkil edirdi ki, bu da Böyük Britaniyanı dünyanın aparıcı fövqəlbəşər sənaye dövləti rolundan məhrum edirdi. İqtisadi yüksəlişin belə diqqətəlayiq dinamikasına eksperimentləri və novatorluğu stimullaşdıran mədəniyyət şərait yaradırdı. Amerikanın siyasi institutları və azad bazar iqtisadiyyatı arxaik imtiyazlar və ya sosial iyerarxiyanın sərt tələbləri ilə məhdudlaşdırılmayan, ambisiyalı və köhnə fikir qəliblərindən azad olan ixtiraçılara öz şəxsi niyyətlərini həyata keçirmək üçün misli görünməyən imkanlar yaratmışdı. Qısası, xaricdən ən istedadlı insanları cəlb edən və onları sürətlə assimilyasiya edən milli mədəniyyət iqtisadi yüksəlişə unikal əlverişli şərait yaradır, milli qüdrətin ekspansiyasını yüngülləşdirirdi.

Birinci Dünya müharibəsi Amerikanın hərbi qüvvələrinin kütləvi şəkildə Avropaya çıxarılması üçün ilk fürsət yaratdı. Nisbi izolyasiya şəraitində olan ölkə sayı bir neçə yüz min nəfərə çatan ordunu qısa zamanda Atlantik okeanının o tayına keçirdi: bu, beynəlxalq arenada fəaliyyət göstərən yeni iri simanın meydana çıxdığını ilk dəfə təsdiq edən, öz ölçüsü və miqyasına görə bənzə-

ri olmayan transokean hərbi ekspedisiyası idi. Fikrimcə, bundan heç də az vacib olmayan məsələ o idi ki, müharibə həm də amerikan prinsiplərinin Avropanın problemlərində tətbiq olunmasına istiqamətlənmiş ilk iri diplomatik addımları şərtləndirmişdi. Vudro Vilsonun məşhur "On dörd müddəası" Birləşmiş Ştatların qüdrəti ilə möhkəmləndirilən amerikan idealizminin Avropa geosiyasətinə hopdurulmasını təcəssüm etdirirdi (Bundan 15 il əvvəl Rusiya ilə Yaponiya arasında Uzaq Şərq münaqişəsinin həllində də Birləşmiş Ştatlar aparıcı rol oynamış və bununla özünün artmaqda olan beynəlxalq statusunu təsdiq etmişdi). Amerikan idealizmi ilə Amerikanın gücünün qaynağı dünya səhnəsində özünü beləcə büruzə verdi.

Qeyd edək ki, Birinci Dünya müharibəsi ilk növbədə Avropamiqyaslı idi, qlobal müharibə deyildi. Lakin onun dağıdıcı xarakteri Avropanın qalan bütün dünya üzərində siyasi, iqtisadi və mədəni üstünlüyünün sonunun başlanğıcı oldu. Avropanın heç bir dövləti müharibənin gedişində özünün həlledici üstünlüyünü nümayiş etdirə bilmədi və siyasi çəki toplamaqda olan qeyri-Avropa dövləti – Amerika münaqişəyə müdaxilə etməklə müharibənin nəticəsinə əhəmiyyətli dərəcədə təsir göstərdi. Bundan sonra Avropa qlobal fövqəlbəşər dövlət siyasətinin subyektindən çox onun obyektinə çevrilməyə başlayacaqdı.

Buna baxmayaraq, Amerikanın dünya lideri rolunda bu qısamüddətli fəallığı ABŞ-ın dünyanın işlərində daimi iştirakına gətirib çıxarmadı. Əksinə, Amerika tez bir zamanda özü üçün xoş olan izolyasionizm və idealizm kombinasiyasından irəli gələn mövqelərə çəkildi. 1920-ci illərin ortaları, 1930-cu illərin əvvəllərində Avropa qitəsində totalitarizm güclənmək üzrə olsa da, həmin dövr üçün iki okeanda Böyük Britaniyanın hərbi-dəniz qüvvələrindən açıq-aşkar üstün olan güclü donanmaya malik Amerika fövqəlbəşər dövləti beynəlxalq məsələlərdə əvvəlki kimi iştirak et-

mirdi. Amerikalılar dünya siyasətindən kənarda qalmağa üstünlük verirdilər.

Amerikanın kontinental ada olması baxışları üzərində qurulan amerikan təhlükəsizlik konsepsiyası belə mövqe ilə həmahəng idi. Onun strategiyası öz sahillərinin müdafiəsinə yönəlmişdi və deməli, dar, milli "xarakterli" idi, özü də beynəlxalq və ya qlobal mülahizələrə az diqqət ayrılırdı. Əsas beynəlxalq oyunçular əvvəlki kimi Avropa dövlətləri idi və Yaponiyanın rolu getdikcə artırdı.

Dünya siyasətində Avrasiya erası İkinci Dünya müharibəsinin, ilk əsl qlobal müharibənin gedişində tamamilə başa çatdı. Döyüşlər eyni zamanda üç qitədə aparılırdı, Atlantik və Sakit okeanları uğrunda da amansız mübarizə gedirdi və müvafiq olaraq Qərbi Avropanın ən uzaq adası ilə Şərqi Asiyanın eyni dərəcədə uzaq adasını təmsil edən Böyük Britaniya ilə Yaponiyanın əsgərləri öz vətənlərinin sahillərindən minlərlə kilometr uzaqda, Hindistanla Birmanın sahillərində bir-birinə qarşı amansız döyüşdə qarşılaşanda müharibənin *qlobal xarakteri* rəmzi olaraq nümayiş olundu. Avropa və Asiya vahid döyüş meydanına çevrildi.

Əgər müharibə nasist Almaniyasının qələbəsi ilə başa çatsaydı, onda vahid Avropa qlobal miqyasda hökmranlıq edən fövqəlbəşər dövlətə çevrilə bilərdi (Yaponiyanın Sakit okeanda qələbəsi isə ona Uzaq Şərqdə aparıcı rol oynamağa imkan verərdi, hərçənd bu halda da, çox güman, Yaponiya əvvəlki kimi regional miqyaslı hegemon olaraq qalacaqdı). Əvəzində Almaniyanın məğlubiyyəti əsas etibarilə Avropaya daxil olmayan iki qalib tərəfindən – Birləşmiş Ştatlar və Sovet İttifaqı – başa çatdırıldı və dünya hökmranlığı uğrunda Avropada yarımçıq qalmış mübahisənin varisləri də məhz onlar oldular.

Dünya üzərində hökmranlıq uğrunda mübarizənin növbəti əlli ili ikiqütblü amerikan-sovet mübarizəsinin üstünlük təşkil etməsi ilə əlamətdar oldu. Birləşmiş Ştatlarla Sovet İttifaqı arasında rəqabət